*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.543-549*

https://doi.org/10.62837/2025.5.543

**MAYA ABDULLAYEVA**
**magamireqizi@gmail.com**

## TRIKSTER ARXETIPI VƏ AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞINDA TRIKSTER MÖVZUSUNUN TƏDQIQ TARIXI

**Xülasə**

Tədqiqatımızın obyektini trikster arxetipi ilə bağlı Azərbaycan folklorşünaslıq və ədəbiyyatşünaslığımızda aparılmış tədqiqat materialları, predmetini isə trikster mövzusunun tədqiq tarixi təşkil edir. Trikster obrazlar insanın dünyaya, mədəniyyətə, ənənəyə və yerli qaydalara olan münasibətini ifadə edir. Bu baxımdan, mövzunun araşdırılması həm Azərbaycan folklorunun, həm də dünya folklorunun sözügedən istiqamətdə öyrənilməsi baxımından xeyli əhəmiyyətlidir.

Trikster, əfsanələrdə, miflərdə və xalq hekayələrində qarşıya çıxan ən mürəkkəb xarakterlərdən biridir. Bu arxetip dünya miqyasında müxtəlif mədəniyyətlərdə fərqli formalarda görünə bilər. Trikster, adətən, cəmiyyətin qaydalarına və normalarına qarşı çıxan, bəzən yalançı, şən, kəskin ağıllı və ya gülünc davranışlar nümayiş etdirən fiqur olaraq təsvir edilir. Onun əsas xüsusiyyəti dəyişkənliyidir: həm yaxşı, həm də pis tərəfləri vardır və cəmiyyətdəki nizamı pozmağa meyllidir. Triksterin bir çox xüsusiyyətləri arasında qeyri-adi ağıllılıq, hiyləgərlik, hətta mətləbə çatmaq üçün manipulyasiya qabiliyyəti yer alır. Triksterin davranışları və şəxsiyyəti, bəzən komik və gülünc, bəzən isə ciddi və qeyri-ciddi olur. O, cəmiyyətin qayda-qanunlarını pozan, ancaq çox zaman bu pozuntunun sonunda daha yüksək bir nizamın yaranmasına səbəb olan bir simadır. Bu xarakterin əsas məqsədi cəmiyyəti düşünməyə və öz normalarına tənqidi yanaşmağa vadar edir. Trikster arxetipi və onun Azərbaycan folklorundakı təzahürlərinin araşdırılması həm milli, həm də dünya folklorşünaslıq elmi üçün vacib məqamdır. Bu arxetipin araşdırılması, sosial və mədəni dəyişiklikləri başa düşmək üçün önəmlidir. Elə buna görə də folklorşünaslıqda bu istiqamətdə tədqiqat istiqmətləri meydana çıxmaqda davam edir. Xüsusilə milli epik folklorumuzda olan trikster obrazları folklorumuzun ən güclü şifrələrinin daşıyıcılarıdır bu səbəbdən də müasir dövrdə belə ən maraqlı təhlil obyektinə çevrilməkdədir.

**Açar sözlər:** Trikster, arxetip, folklor, mifologiya, ikiləşmə, hiyləgər

**Maya Abdullayeva**

**The trickster archetype and the history of research on the trickster theme in Azerbaijani folklore**

**Summary**

The object of our research is the trickster archetype and the history of its study in our national literature. Trickster characters express a person's attitude towards the world, as well as their perspective on culture, tradition, and local rules. From this po-

int of view, exploring this topic is of great importance for the development of both Azerbaijani folklore and world folklore.

The trickster is one of the most complex characters found in legends, myths, and folk tales. This archetype can appear in different forms across various cultures around the world. The trickster is typically portrayed as a figure who opposes societal rules and norms—often deceptive, cheerful, sharply intelligent, or behaving in a ridiculous manner. Its main feature is its fluid nature: it possesses both good and bad traits and tends to disrupt the established order. Among the many characteristics of the trickster are extraordinary intelligence, cunning, and even the ability to manipulate to achieve goals. The behavior and personality of the trickster can be both comical and serious, depending on the context. It is a figure that breaks societal rules, but often this disruption results in the emergence of a higher order. The primary purpose of this character is to compel society to think and to critically reassess its own norms. The study of the trickster archetype and its manifestations in Azerbaijani folklore is an important issue for both national and global folklore studies. Investigating this archetype is essential for understanding social and cultural changes, and thus continues to open up numerous research directions in folkloristics. Particularly in our national epic folklore, trickster characters serve as carriers of some of the most powerful codes of our folklore, which is why they remain among the most intriguing subjects of analysis even in the modern era.

**Key words:** Trickster, archetype, folklore, mythology, duality, cunning.

## Архетип трикстера и история изучения темы трикстера в азербайджанском фольклористике

### Резюме

Объектом нашего исследования является архетип трикстера и история его изучения в национальной литературе. Образы трикстеров выражают отношение человека к миру, его восприятие культуры, традиций и местных обычаев. С этой точки зрения исследование данной темы имеет большое значение как для развития азербайджанского, так и мирового фольклора. Трикстер — один из самых сложных персонажей, встречающихся в легендах, мифах и народных рассказах. Этот архетип проявляется в различных формах в культурах по всему миру. Обычно трикстер изображается как фигура, нарушающая общественные нормы и правила, зачастую лживая, весёлая, остроумная или комически ведущая себя. Его главной особенностью является изменчивость: у него есть как положительные, так и отрицательные стороны, и он склонен нарушать установленный порядок в обществе. Среди многочисленных черт трикстера можно выделить необычный ум, хитрость и даже способность к манипуляции ради достижения цели. Его поведение и личность могут быть как комичными и смешными, так и серьёзными и

неординарными. Это персонаж, нарушающий общественные законы, но часто именно эти нарушения приводят к установлению нового, более высокого порядка.

Основной целью этого характера является побуждение общества к размышлению и критическому переосмыслению собственных норм. Исследование архетипа трикстера и его проявлений в азербайджанском фольклоре представляет собой важный аспект как национальной, так и мировой фольклористики. Анализ этого архетипа помогает глубже понять социальные и культурные трансформации, и поэтому продолжает формировать множество направлений в научных исследованиях фольклора. Особенно важно отметить, что образы трикстера, встречающиеся в национальном эпическом фольклоре, являются носителями сильнейших культурных кодов, а потому и в современную эпоху остаются одними из самых интересных объектов анализа.

**Ключевые слова**: трикстер, архетип, фольклор, мифология, дуализм, хитрец.

Trikster arxetipi dünya miqyasında bir çox mədəniyyətlərdə mövcuddur və bu arxetipin tədqiqi, folklorşünaslıq, mifologiya və ədəbiyyatın müxtəlif sahələrində mühüm yer tutur.

Trikster, adətən, hiyləgər və ya gülməli xarakterlər olaraq təqdim olunur, əksər hallarda sosial və mədəni qaydalara qarşı çıxaraq onları dəyişdirən bir obrazdır. Bu arxetip, həmçinin, mədəniyyətlər arasında sərhədləri keçmək, dəyişikliklər yaratmaq, təcrübə və mövcud qaydalara qarşı çıxmağa meylli olmaqla tanınır.

Belə qənaətə gəlmək olar ki, trikster obrazı əfsanələrdə, miflərdə və xalq hekayələrində qarşıya çıxan ən mürəkkəb xarakterlərdən biridir. Bu arxetip dünya miqyasında müxtəlif mədəniyyətlərdə fərqli formalarla görünə bilər. Trikster, adətən, cəmiyyətin qaydalarına və normalarına qarşı çıxan, bəzən yalançı, şən, kəskin ağıllı və ya gülünc davranışlar nümayiş etdirən fiqur olaraq təsvir edilir. Onun əsas xüsusiyyəti dəyişkənliyidir: həm yaxşı, həm də pis tərəfləri vardır və cəmiyyətdəki nizamı pozmağa meyllidir. R.N.Kuleşova görə, "trikster obrazının xüsusiyyətlərinin gülüş mədəniyyəti çərçivəsindəki rolu müəyyən edilmişdir ki, bu da destruktiv funksiyanın həyata keçirilməsində özünü göstərir. Bu funksiya arxaik ənənədə aksentrasiya və nəticədə müəyyən edilmiş qaydaların, sərhədlərin pozulması kimi ifadə olunur, bu da mədəniyyətin inkişafı üçün imkan yaradır" [12, s. 216].

Bu obrazın bir çox xüsusiyyətləri arasında qeyri-adi ağıllılıq, hiyləgərlik, hətta mətləbə çatmaq üçün manipulyasiya qabiliyyəti yer alır. Triksterin davranışları və şəxsiyyəti, bəzən komik və gülünc, bəzən isə ciddi və qeyri-ciddi olur. O, cəmiyyətin qayda-qanunlarını pozan, ancaq çox zaman bu pozuntunun sonunda daha yüksək bir nizamın yaranmasına səbəb olan bir simadır. Bu xarakterin əsas məqsədi cəmiyyəti düşünməyə və öz normalarına tənqidi yanaşmağa vadar edir.

Trikster obrazlar insanın dünyaya qarşı olan münasibətini, onun mədəniyyətə, ənənəyə və yerli qaydalara yanaşmasını ifadə edir.Bu baxımdan, mövzunun araşdırılması həm Azərbaycan folklorunun, həm də dünya folklorunun öyrənilməsi istiqamətində xeyli əhəmiyyətlidir. Azərbaycan folklorunda trikster arxetipi müxtəlif formalarda təqdim edilir. Onun Azərbaycan folklorundakı təzahürlərinin araşdırılması həm milli, həm də dünya folklorşünaslıq elmi üçün vacib məqamdır. Hikmət Quliyev qeyd edir ki, trikster anlayışının müəyyənləşdirilməsi mədəniyyətin bütöv bir enerji mənbəyinin aydınlaşdırılmasına xidmət edə bilər [6, s, 49].

Demək, bu arxetipin araşdırılması, sosial və mədəni dəyişiklikləri başa düşmək üçü çox önəmlidir. Elə buna görə də bu mövzu folklorşünaslıqda çoxsaylı tədqiqat istiqmətləri yaratmaqda davam edir. Xüsusilə, milli epik folklorumuzda olan trikster obrazları folklorumuzun ən güclü şifrələrinin daşıyıcılarıdır bu səbəbdən də müasir dövrdə ən maraqlı təhlil obyektinə çevrilməkdədir. Azərbaycan folklorunda trikster arxetipi həm də müxtəlif mifoloji fiqurlar kimi xalq hekayələrində, epik folklor örnəklərində öz əksini tapır. Burada, adətən, "fırıldaqçı", "dələduz", "yalançı", "dəli","ağıllı", "axmaq", "hiyləgər" obrazları daha çox ön plana çıxır. Belə obrazlardan Molla Nəsrəddin, Koroğlu, Dədə Qorqud, Dəli Domrul, Beyrək və s. xalqımızın epik folklorunda geniş yayılmışdır. Hikmət Quliyev tədqiqatlarında göstərir ki, "trikster kimi Molla Nəsrəddinin davranış spesifikasına və düşüncə sturukturuna görə nizamı deyil, nizamsızlığı, düzü deyil, tərsinəliyi ifadə edir. İstər eşşəyi tərsinə minməsi, istər evin tavanını döşəməyə, döşəməsini tavana vurdurması, istərsə də üstündə oturduğu budağı kəsməsi ilə Molla Nəsrəddin məntiqi düşüncəyə uyğun gəlməyən xaotik davranışları həyata keçirir" [7, s. 173].

Beləliklə, Molla Nəsrəddin obrazı həm ağıllı, həm də cəmiyyətdəki normativ qaydalara qarşı çıxan bir xarakter kimi təqdim olunur. Onun lətifələri çox vaxt hikmətli, lakin hiyləgər və ya gülməli nəticələrə gətirib çıxarır.

Y.V.Çernyavskaya yazır ki, "çox vaxt ciddi olan "mədəniyyət qəhrəmanı" trikster xüsusiyyətlərinə sahib olur, ya da insanlar üçün "trikster" hərəkətləri edir. Məsələn, Prometey tamamilə "trikster" üsulla atəşi oğurlayır. Həmçinin triksterin xüsusiyyətlərini yalnız mədəniyyət qəhrəmanı deyil, həm də tanrı da daşıya bilər. Məsələn, Hermes. Onun tanrılıq statusu artıq ona ciddi yanaşmanı göstərir. Lakin lazım gəldikdə o da hiyləgərlik edir. Beləliklə, yalnız qəhrəman deyil, həm də tanrı trikster xüsusiyyətlərinə malik ola bilər" [13, s. 42].

Milli ədəbiyyatımızda bunun ən yaxşı nümunəsi bütün oğuzların müqəddəs saydığı Dədə Qorquddur. Dədə Qorqud nə qədər Oğuz elində düzlük, ədalət mücəssəməsi olsa da, Dəli Qarcarla olan səhnədə yalan danışır, hiylə ilə Dəli Qarcarın qəzəbindən canını qurtarır. Yaxud "Baybörənin oğlu Bamsı Beyrək" boyunda Beyrəyin öz vədinə – sözünə xilaf çıxdığını görürük. Onun həbsdən xilas olmasına kömək edən kafir qızına verdiyi sözü tutmur. "Beyrək and içdi: "Oğuz yurduna salamat çatsam, gəlib səni halallıqla almasam, qılıncımla doğranım! Oxuma sancılım! Yer kimi

çatlayım, torpaq kimi sovrulum!" [2, s. 212 ]. Dastanın Drezden nüsxəsindən gətirdiyimiz bu nümunədə biz Beyrək obrazının triksterik tərəflərini görürük.

Yaxud Dədə Qorqud dastanından igid, qorxmaz kimi tanıdığımız Dəli Domrul Əzraillə qarşılaşanda bir trikster kimi çıxış edir, ölümdən qorxur, xarekterin ikiləşməsi baş verir, igidlik-qorxaqlıq kimi ambivalentlik yaranır. "Dəli Domrul qırx yigid ilən yeyib-içib oturarkən nagahandan Əzrayil çıqa gəldi. Əzrayili nə çavuş gördü,nə qapıçı. Dəli Domrulun görər gözü görməz oldu,tutar əlləri tutmaz oldu.Dünya-aləm Dəli Domrulun gözünə qarannu oldu" [3.s,75 ].

Muxtar Kazımoğlu bu barədə yazır: "Allah qarşısında günahkar olduğunu anlayıb,qorxu hissi keçirmək heç də dəli igidin qorxmazlığı ilə ziddiyyət yaratmır.Heç kimdən qorxmayan və ölüm mələyi ilə döyüşmək fikrinə düşən Dəli Domrulun Allahdan qorxması dastanda bir tərəfdən Allahın qüdrətini təsdiqləməyə xidmət edirsə,digər tərəfdən Dəli Domrulu bir obraz kimi daha dərindən anlamağa xidmət edir" [1, s. 179].

Bundan başqa xalq qəhrəmanı,igidlik,mərdlik simvolu olan Koroğlu "bəd ayaqda" hiylə işlədir, libas dəyişdirir, özünü gah qoruqçu, gah aşıq, gah da mehtər kimi təqdim etməklə triksterik təbiət nümayiş etdirir. Azərbaycan folklorşünaslığında trikster mövzusu hələ XX əsrin ortalarından etibarən diqqət mərkəzinə alınmağa başlanmışdır. Trikster obrazları ilə bağlı tədqiqatlar bir sıra istiqamətlərdə aparılır:

1. Çətin vəziyyətdən asanlıqla qurtulma Molla Nəsrəddin obrazının əsas xüsusiyyəti kimi təhlil edilir. Molla Nəsrəddin hər zaman qəliz vəziyyətlərdən çıxmağın yollarını axtaran yumoristik bir obraz olaraq araşdırılır.

H.Quliyevin təbirincə desək: "Artıq Molla Nəsrəddin kimliyi obraz sərhəddini aşaraq xüsusi bir düşüncə modeli səviyyəsinə qalxıb ki, bu da şüur və təhtəlşüur münasibətlərinin obraz nisbətinin xüsusi formasını təqdim edir. Bu mənada, Müdrik Qoca arxetipinin trikster paradiqması kimi Molla Nəsrəddin özündə müdrikliyin, ağsaqqallığın xüsusiyyətlərini yaşatdığı kimi triksterliyin – oyunbazlığın, yalançılığın və s.-nin keyfiyyətlərini də paralel şəkildə təcəssüm etdirməkdədir" [7, s.142].

2. Digər bir istiqamət obrazın ikiləşməsi, əvəzlənməsi, əkizlik və sosial status məsələlərinin öyrənilməsidir. Triksterlər tez-tez ikili xarakter daşıyır və sosial status məsələlərində sərhədləri keçirlər. Beləliklə, cəmiyyətin gözləntilərinə meydan oxuyan obrazlar başqa bir obrazın yerinə keçir,onun oxşarına çevrilir. S.Rzasoyun tədqiqatlarında bu əvəzlənmə Qazan xan və Qaraca Çoban obrazlarının simasında çox maraqlı şəkildə təhlil olunur. "Kosmoloji sxemə görə, Qazanla çoban öz statuslarını və cildlərini dəyişirlər....Çoban statusdəyişmə ritualında Qazanın xan və alp igid statuslarına yiyələnir. İndi Qazan ritual müddətində – çoban,çoban isə – Qazandır. Beləliklə rollar dəyişir" [8, s.146].

3. Triksterlər kinayə və yumor hədəfi kimi fərqli aspektlərdən təhlilə cəlb olunur. Azərbaycan folklorunun trikster xarakterli obrazları çox vaxt cəmiyyətin möv-

cud qaydalarına qarşı ironiya ilə yanaşır və əksər hekayələrdə məhz gülüş və komik situasiyalar vasitəsilə sosial məsələlərə toxunulur.

4. Başqa bir istiqamət ağıllı və axmaq triksterlərin müqaisəli təhlili təşkil edir. Trikister obrazlar çox vaxt öz məqsədinə çatmaq üçün ağıllı olduğu halda özünü axmaq kimi aparır. Bəzən də hamının axmaq kimi tanıdığı biri çox ağıllı bir söz deyir və ya ağıllı hərəkət edir,yəni ağıllı axmağı,axmaq da ağıllını yamsılamaqla onun dublyoruna çevrilir. R.Qafarlının fikrincə desək, "Trikster – mifologiyada mədəni qəhrəmanın əks qarşılığına – demonaoxşar, komik, kələkbaz, şeytanəməlli dublyoruna verilən addır. Qəhrəmanın hərəkətlərinin yamsılanması kimi də başa düşmək olar. Əksər hallarda trikster rolunda onun əkiz qardaşı çıxış edir. Bəzi miflərdə isə əks dublyor rolunu qəhrəman özü ifa edir, başqa sözlə, özünün demiurq fəaliyyətini əks tərəfdən göstərir, yəni uğurlarını uğursuzluq kimi təqdim edir. Əkizlər mifində, qardaşlardan biri xeyirli işlərlə məşğul olur, digəri isə onu əks tərəfdən təqlid edərək – ziyankarlıq törədir. "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" xalq dramında tənbəl qardaşın fəaliyyəti triksterlərə əsaslanır. Dualist təsəvvürlərdə trikister özünü Hörmüz və Əhrimanın timsalında büruzə verir: Hörmüzün yaratdıqlarını qardaşı Əhrimən məhvə çalışır. Hörmüz xeyiri, işığı, düzlüyü müdafiə edir, Əhriman şəri, qaranlığı, yalanı" [4, s. 231].

Göründüyü kimi Azərbaycan folklorşünaslığında trikster arxetipi, xüsusilə şifahi xalq ədəbiyyatında nağıl, dastan, əfsanə kimi epik növləri ilə yanaşı,adət və ənənədə, xalqımızın müxtəlif incəsənət nümunələrində geniş şəkildə özünü göstərir. S.Qarayevin müşahidələrinə əsasən, "dünyanın harmoniya və antiharmoniya, xeyir və şər güclər arasında mübarizə əsasında duyulması sözlü folklor mətnləri ilə yanaşı, adət və ənənələrdə, dil faktlarında və müxtəlif xalq təsviri incəsənət nümunələrində özünü göstərir. Odur ki, istər epik qəhrəman, istərsə də həmin psixologiyanı öz fəaliyyət və davranışlarında imitasiya edən adət-ənənə daşıyıcıları xaosu qovmağa, onlarla münasibəti müxtəlif üsullarla tənzimləməyə çalışırlar" [11, s. 18].

Azərbaycan folklorunda, xüsusilə, ciddi,qeyri-ciddi və məzəli obrazlar çox vaxt cəmiyyətdəki mövcud qaydalara qarşı çıxan xarakterlər kimi təsvir edilir. Azərbaycan folklorşünaslığında trikster mövzusuna hər zaman maraq olmuş, bu gün də var olmaqdadır. Onlardan bir neçəsinin əsərləri bu sahədəki nəzəriyyələri inkişaf etdirmiş və zənginləşdirmişdir. Əvvəlki mərhələdə ədəbiyyatşünaslıqda trikster obrazlarının təhlili müasir dövrdən fərqli olaraq ümumi şəkildə yalnız folklor obrazları kimi araşdırılmışdır. Müasir mərhələdə isə triksterik obrazların semantik-funksional xüsusiyyətlərinin tədqiqi onların folklor spesifikası baxımından həm ümumi səciyyəvi, həm də imkan daxilində özünəməxsus cəhətlərinin aşkara çıxarılması diqqət çəkir. M.Kazımoğlunun bu sahədəki tədqiqatları olduqca maraqlıdır. Onun araşdırmalarında folklorda obrazların ikiləşməsi, trikster obrazların əsas mahiyyəti, müxtəlif epik janrlarda obrazların ikiləşməsinin mifoloji kökləri və təzahür formaları ətraflı tədqiq edilmişdir. Bu mərhələdə təkcə M.Kazımoğlunun deyil də, həmçinin R.Qafar-

lının [5, s. 230], S.Rzasoyun [9, s. 345], H.Quliyevin [6, s. 215], S.Qarayevin [10, s. 245] bu istiqamədəki araşdırmaları olduqca zəngin və ədəbiyyatımız üçün çox faydalıdır. Trikster obrazlarını tədqiq edərkən təkcə ədəbiyyat istiqaməti ilə məhdudlaşmaq olmaz, həmçinin psixologiya, antropologiya, tarix, mədəniyyətşünaslıq sahələrindəki elmi əsərlərə müraciət etmək daha da məqsədyönlü olardı. Çünki trikster obrazı mədəniyyətin və elmin bütün inkişaf mərhələlərində müxtəlif formalarda mövcud olmuşdur. Trikster arxetipi həm universal, həm də mədəniyyətlərə xas bir fenomen olaraq, Azərbaycan folklorunda da özünəməxsus şəkildə inkişaf etmiş və bu obraz, xüsusilə şifahi xalq ədəbiyyatında cəmiyyətdəki sərhədləri aşmaq, təfəkkürü zənginləşdirmək funksiyasını yerinə yetirmişdir. Bu mövzunun daha dərindən öyrənilməsi, folklorun özündəki dərin mənaları açmağa və Azərbaycan mədəniyyətindəki arxetipik təsirləri başa düşməyə kömək edəcəkdir.

## ƏDƏBİYYAT

1. Kazımoğlu, M. Xalq gülüşünün poetikası. Bakı: Elm nəşriyyatı, 2006, 264 s.
2. Kitabi Dədə Qorqud (Əsl və sadələşdirilmiş mətnlər). Bakı: Öndər, 2004, 376 s.
3. Kitabi-Dədə Qorqud ensiklopediyası: 2 cilddə, I c. Bakı: Yeni nəşrlər evi, 2000, 623 s.
4. Qafarlı, R. Mifologiya. 6 cilddə, I cild. Mifogenez, rekonstruksiya. struktur, poetika. Bakı: Elm və təhsil, 2015.452 s.
5. Qafarlı, R. Mifologiya. Altı cilddə. İkinci cild. Ritual-mifoloji dünya modeli. Bakı: Elm və təhsil, 2019, 432 s.
6. Quliyev, H. Azərbaycan folklorunda müdrik qoca arxetipi. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2015.
7. Quliyev, H. Müdrik Qoca arxetipinin semantik strukturu və paradiqmaları. Bakı: Elm və təhsil, 2016, 216 s.
8. Rzasoy, S. "Dədə Qorqud" eposu. III kitab. Şaman-qəhrəmanın xaos dünyasına yolçuluğu. Bakı: Elm və təhsil, 2025, 172 s.
9. Rzasoy, S. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi ("Əsli-Kərəm" və "Dədə Qorqud"). Bakı: Elm və təhsil, 2015, 436 s.
10. Qarayev, S. Xaotik davranışlar prizmasından triksterin əsas xüsusiyyətləri // " Dil və ədəbiyyat" beynəlxalq elmi-nəzəri jurnalı, 2013, № 3 (87), s. 245-247.
11. Qarayev, S. Mifoloji xaos: strukturu və poetikası. Bakı: Elm və təhsil, 2016, 214 s.
12. Кулешов, Р.Н. Функциональное значение образа трикстера в архаической традиции. Аналитика культурологи. Харьков: ХГАК, 2007, s. 214–218.
13. Чернявская, Ю.В. Трикстер, или путешествие в хаос // Ю.В. Чернявская. Человек: Иллюстрированный научно-популярный журнал, 05/2004, № 3. С. 37-52.

**Rəyçi: AMEA Folklor İnstitutunun Mifologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Seyfəddin Rzayev**